## Valyuta ehtiyatlarımız borcumuzdan 10 dəfə çoxdur

*«İlin əvvəlindən ölkəmizin strateji valyuta ehtiyatları artmışdır. Hazırda Azərbaycanın valyuta ehtiyatları 44 milyard dollar səviyyəsindədir. İlin sonuna qədər bu rəqəm artmalıdır. Xarici dövlət borcu çox aşağı səviyyədədir. Bu, ümumi daxili məhsulun 7%-ni təşkil edir və dünya miqyasında ən müsbət göstəricilərdən biri hesab olunur».*

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

Həm yerli, həm də beynəlxalq maliyyə institutlarının ekspertlərinin qənaətinə görə, yaxın 10 ildə Azərbaycanın valyuta ehtiyatları 100 milyard dolları keçəcək.

*Strateji valyuta ehtiyatlarının idarə olunması istiqamətində*
*çevik siyasət yürüdülür*

Hazırda Mərkəzi Bankın sərəncamında olan rəsmi valyuta ehtiyatlarının həcmi 11 milyard ABŞ dollarını keçmişdir. Qurumdan verilən məlumata görə, 2012-ci ilin yarım ili ərzində Mərkəzi Bankın valyuta ehtiyatları 564,8 mln. dollar (5,4%) artaraq ikinci rübün sonunda 11.046,3 mln. dollara çatmışdır. Dövlət Neft Fondunun aktivləri isə 32 milyard 666 milyon ABŞ dolları məbləğindədir. Ölkənin strateji valyuta ehtiyatlarının çoxalması, ilk növbədə, kredit reytinqinin yüksəlməsinə müsbət təsir edir. Strateji valyuta ehtiyatlarının artması xarici investorlar üçün ölkəni cəlbedici edir: investorlar sabit iqtisadiyyatlı ölkələrə meyilli olurlar: valyuta ehtiyatlarının sürətlə artması həm ölkənin ödəniş qabiliyyətli olması, həm də öhdəliklərini vaxtında yerinə yetirə bilməsi deməkdir.

Dünya Bankının və Beynəlxalq Valyuta Fondunun hesabatlarında bildirilir ki, Azərbaycan hökuməti strateji valyuta ehtiyatlarının idarə olunması istiqamətində çevik siyasət yürüdür. Bu siyasət dünyada maliyyə böhranının davam etdiyi dövrdə böyük valyuta ehtiyatlarına malik ölkə üçün böhranın hər hansı təsirini tamamilə məhdudlaşdırmaq iqtidarına malikdir. Beynəlxalq maliyyə institutları Azərbaycanda dərin makroiqtisadi təməllərin yaradıldığını, maliyyə sabitliyinin möhkəmləndirilməsi istiqamətində çevik iqtisadi addımların atıldığını, ümumilikdə, valyuta bazarının bütün seqmentlərində inkişaf templərinin müşahidə olunduğunu bəyan ediblər. Bu tendensiya valyuta ehtiyatlarının artması ilə bərabər, həm də milli valyutamızın - manatın aktiv pul aləti kimi nüfuzunun artmasına təkan vermişdir.

*İdarəetməyə verilən vəsaitlərdən*
*milyard dollardan çox dividend əldə*
*ediləcəyi gözlənilir*

Respublikamızın valyuta sərvətlərinin artması beynəlxalq maliyyə bazarlarında idarəetməyə verilən aktivlərin əhəmiyyətli dərəcədə yüksəlməsinə də baza yaratmışdır. Azərbaycan hökuməti valyuta portfelindəki rezervlərin bir hissəsini dünya maliyyə strukturlarında yerləşdirərək beynəlxalq idarəetməyə vermişdir. Hazırda Mərkəzi Bankın valyuta ehtiyatlarının bir hissəsi, o cümlədən Dövlət Neft Fondu vəsaitlərinin böyük qismi beynəlxalq maliyyə təşkilatlarında saxlanılır. Hökumətin həyata keçirdiyi bu siyasətin əsas elementləri həmin vəsaitlərin maksimum gəlir gətirən bölmələrdə yerləşdirilməsindən ibarətdir. Yəni strateji valyuta ehtiyatlarının artmasında və ölkəmizin maliyyə imkanlarının yaxşılaşmasında vəsaitlərin idarə olunması ən perspektivli və yüksək gəlir gətirən sahə hesab olunur. Azərbaycan hökuməti bəyan etmişdir ki, yaxın illərdə xarici təşkilatlarda idarəetməyə verilən valyuta ehtiyatlarından əldə olunan gəlirlər neft sektorundan sonra aparıcı yeri tutacaq. Proqnozlara görə, bir neçə ildən sonra ölkəmizin idarəetməyə verilən vəsaitlərdən milyard dollardan çox dividend əldə edəcəyi istisna olunmur. Bu gün həm Mərkəzi Bankın, həm də Dövlət Neft Fondunun vəsaitləri dünyanın tanınmış maliyyə təşkilatlarında - Dünya Bankı, Doyçe Bank, Klarden Li və digər nüfuzlu maliyyə institutlarında idarəetməyə verilib və nəticədə hər il milyonlarla dollar gəlir əldə olunur.

«İndi biz özümüz kreditlər veririk və bu, həm siyasi, həm də iqtisadi cəhətdən müsbət haldır. Biz öz pulumuzu müxtəlif alətlər vasitəsilə yerləşdiririk. Götürüləcək kreditlər, sadəcə olaraq, istisna

hal kimi ola bilər. Çünki əsas işlər dövlət büdcəsi, yaxud da ki, əvvəllər götürülmüş kreditlər hesabına görülür. Mən yeni kreditlərin götürülməsinə o qədər də böyük ehtiyac görmürəm». Dövlət başçısı İlham Əliyev Nazirlər Kabinetinin son iclasında bu fikirlərin davamı olaraq bildirmişdir: «Çalışmalıyıq ki, növbəti illərdə biz bu kreditlərin borcunu bir az da endirək. Halbuki biz bu borcu bir gündə ödəyə bilərik. Yəni bizim valyuta ehtiyatlarımız borcumuzdan 10 dəfə çoxdur».

Rəşad SADIQOV